**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ**

**KOLLEGİYA QƏRARI**

**1000/02/001**

**Bakı şəhəri** **12 aprel 2021-ci il**

**“Xarici dövlətlərin avtonəqliyyat vasitələrinin Azərbaycan Respublikası ərazisinə daxil olması və bu ərazidən sərnişin və yük daşınması üçün istifadə etməsinə görə yol vergilərinin hesablanıb tutulması haqqında Təlimatın təsdiq edilməsi barədə” Dövlət Gömrük Komitəsinin 2003-cü il 14 mart tarixli 026 nömrəli əmrində dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kollegiyası “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 18 dekabr tarixli 221-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə”nin 5.11.6-cı yarımbəndinə əsasən

**QƏRARA ALIR:**

1. “Xarici dövlətlərin avtonəqliyyat vasitələrinin Azərbaycan Respublikası ərazisinə daxil olması və bu ərazidən sərnişin və yük daşınması üçün istifadə etməsinə görə yol vergilərinin hesablanıb tutulması haqqında Təlimatın təsdiq edilməsi barədə” Dövlət Gömrük Komitəsinin 2003-cü il 14 mart tarixli 026 nömrəli əmrinin 1-ci hissəsi ləğv edilsin.
2. Hüquqi Təminat İdarəsi (Sənan Muxtarov) bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.
3. Qərar aidiyyəti üzrə göndərilsin.

**Kollegiyanın sədri** **Səfər Mehdiyev**